*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2025, №2* *ISSN: 2664-5432*
*Səhifə: 171-180*
https://doi.org/10.59849/2664-5432.2025.2.171

**Nəsibə ABBASOVA***

# “DİSKURS” VƏ YA “DİSKURSİVLİK” FENOMENİNƏ ELMİ BAXIŞIN QISA MƏCMUSU
## (Müasir Azərbaycan və Avropa dilçilikləri mövqeyindən)

**XÜLASƏ**

“Diskurs və ya diskursivlik fenomeninə elmi yanaşmanın qısa xülasəsi (Müasir Azərbaycan və Avropa dilçilərinin mövqeyindən)” başlıqlı məqalədə müəllif qeyd olunan problemlə bağlı ümumiləşdirici nəzəri mövqeyini əks etdirir. 20-ci əsrin filoloji fəlsəfəsi çərçivəsində mövcud problemə yeni sosial-konseptual yanaşma nəticəsində diskurs nitqdə və ya mətndə işlənmiş monoloji linqvistik konstruksiya kimi başa düşülür. Bundan əlavə, hər bir dildə nitqin “istehsal”ı müəyyən qaydalara (sintaksis) uyğun olaraq və onun son mahiyyətini əks etdirən müəyyən semantika ilə həyata keçirilir. Diskursiv sferada intellektual və sosial sferalar qarşılıqlı olaraq dil sisteminin fəaliyyəti üçün şərait və imkanlar yaradır (ünsiyyət mühiti və kommunikatorlar vasitəsilə) və bu vəziyyət müəyyən növ diskursiv təcrübəyə çevrilir. Diskursun həlledici meyarı müxtəlif linqvistik konstruksiyaların yaradıldığı konkret dil mühitidir. Bu konsepsiyaya görə, diskurs “dil daxilindəki dildir”, yəni aktlarda, nitqdə və mətnlərdə təzahür edən lüğət, semantika, praqmatika və sintaksis elementlərini özündə birləşdirən kommunikativdir. Bu nəzəri fikirləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, bu qədər müxtəlif təriflər (determinantlar) arasında diskurs və ya diskursivlik anlayışının vahid, düzgün, konkret linqvistik tərifi yoxdur və ola da bilməz.

***Açar sözlər:*** *diskurs nəzəriyyəsi, nitq prosesi, kommunikativ aktlar, dilin diskursiv funksionallığı, nitqin idarəetmə ideologiyası, süni intellekt*

“Diskurs” və ya “diskursivlik” fenomeninin öyrənilməsinə həsr olunmuş azərbaycanlı (milli) və əcnəbi dilçilərin elmi araşdırmalarını təhlil edərkən belə qənaətə gəlmək olur ki, diskurs nəzəriyyəsi (E.Benvenist) əsasən XX əsrin ikinci yarısından bəri işlənib linqvistik mühitə təqdim olunmuşdur, lakin bu fenomenin elmi-universal səviyyədə öyrənilməsi təcrübəsi bu gün də davam etdirilir.

XX əsrin ikinci yarısında filoloji ədəbiyyata latın mənşəli “diskurs” termininin (discursus – mühakimə, fikir yürütmə, əsaslandırma və yaxud discurrere – muzakirə etmək, söhbət etmək) müasir təqdimini ehtiva edən fransız dilindən (discours) gəldiyi iddia olunur.

Araşdırmalar göstərir ki, ciddi leksikoqrafik tezaurusda diskurs fenomeni oxşar anlamda(həmçinin mahiyyətcə diskursivlik anlamında) antik dövr filosofla-

* DTX-nin Heydər Əliyev adına Akademiyası, Xarici dillər kafedrası, dosent,f.ü.f.d. Email: abbasova64@internet.ru

rından tutmuş müasir mütəfəkkirlərin (Platon, Aristotel, Foma Akvinski, Dekart, Spinoza, Leybnits, Hobs Lokk, X.Volf, M. Mendelson, F.Yakobi, Kant, Hegel və b.) mühakimələrində dil və nitqin ardıcılxətli əlaqələrinin məcmusu kimi – "birincinin müəyyən şəkildə ikinciyə təsir etmək cəhdi" şəklində,yəni diskursiv təfəkkür vasitəsilə "intellektin bir obyektdən digərinə hərəkəti" və s. kimi müəyyənləşdirilmişdir. [https://**ru.wikipedia**.org/w/index.php] Dildə diskurs anlayışına məzmunca sinonim mahiyyət daşıyan diskursivlik fenomeni də ümumi mənada nitqi, linqvistik fəaliyyət prosesini nəzərdə tutan anlayışlar sistemini (dil, təfəkkür, mühakimə, nitq münasibətləri) ifadə edən polisemantik hadisə olaraq qəbul edilmişdir. XX əsrin filoloji fəlsəfəsi çərçivəsində mövcud problemə yeni linqvo--konseptual baxış nəticəsində diskurs anlayışı nitq və ya mətndə işlənmiş monoloji linqvistik konstruksiya kimi başa düşülür. Diskurs məfhumu dilçilik elmində ilk dəfə 1952-ci ildə Amerika alimi Zeliq Hərris tərəfindən «Diskurs təhlili» («Discourse analysis») məqaləsində işlədilərək, söyləmin (deyim, ifadə) böyük birləşmələrinin tərifinin verilməsi məqsədi ilə yazılmışdır. Z.Hərris diskursu mətnin cümlədən böyük parçası hesab etmiş və diskurs anlayışına konkret yanaşmaq qənaətinə gəlmişdir. Eyni zamanda belə yanaşma vasitəsilə diskursun daha çox dillə həyata keçirilən kommunikativ aktlardan: dialoqlar, polemik söhbətlər və ya ümumi (hüquqi, fəlsəfi, tarixi, ictimai və s.) mövzulara həsr olunmuş yazılı mətnlərdən, daha doğrusu, qarşılıqlı koqnitiv istinadlardan ibarət olduğu qənaətinə gəlinir. Belə hesab edilir ki, diskurs konkret dil sferasına uyğun gələn dilin fəaliyyəti ilə bağlıdır və xüsusi lüğət sisteminə malikdir. Bundan əlavə, hər bir dildə nitqin "istehsalı" müəyyən qaydalara (sintaksis) uyğun və onun yekunlaşdırıcı mahiyyətini əks etdirən müəyyən semantika ilə həyata keçirilir. Beləliklə, diskurs müəyyən semantik sahədə yaradılır və özünəməxsus qrammatika ilə kommunikativ məqsədli mənalar çatdırılmağa başlanılır. Diskursiv sahədə intellektual və sosial sahələr qarşılıqlı olaraq dil sisteminin fəaliyyətinə şərait və imkan(ünsiyyət mühiti və ünsiyyətçilər vasitəsilə) yaradır və bu hal müəyyən bir diskursiv təcrübə növünə çevrilir.

Diskursun həlledici meyarı müxtəlif linqvistik konstruksiyaların yaradıldığı xüsusi dil mühitidir. Bu anlayışa uyğun olaraq diskurs "dil daxilindəki dil", yəni aktuallaşmış kommunikativ aktlarda, nitqdə və mətnlərdə təzahür edən lüğət, semantika, praqmatika və sintaksis elementlərini özündə ehtiva edir [https://**ru.wikipedia**.org/w/index.php]. Diskursun linqvistik tədqiqatında alman (Z.Y.Şmidt, K.Brinker, H.Vater, Y.Habermas, V. Dressler, V.Heinemann, G.Greafen, H.Veinrix,G.Zifonun, R.Rath və b.) və rusiyalı alimlərin (N.V.Pançenko, Z.Y.Turayeva, İ.R.Qalpern, V.Y.Çernyavskaya, V.İ.Karasik, A.A.Kibrik, M.L.Makarov və b.) [https://**ru.wikipedia**.org/w/index.php]; həmçnin Azərbaycan dilçilərinin (K.Abdullayev, F.Veysəlli, A.Məmmədov, M.Məmmədov, Ə.Abdullayev, F.Cahangirov, G.Allahverdiyeva, İ.Məmmədova A.Səfərova, Y.Orucova və b.) mətn və diskursla bağlı maraqlı fikirlərı öz əksini tapmışdır. [https://**az.wikipedia**.org/w/index.php]

Bu baxımdan XX əsrin ikinci yarısında diskurs cümlələrin və ya nitq aktlarının əlaqəli ardıcıllığı kimi başa düşülür, daha doğrsu, mətn anlayışına yaxın məfhum kimi qəbul edilə bilir. XX əsrin sonlarında diskurs mürəkkəb kommunikativ hadisə, bilik iyerarxiyasının mürəkkəb sistemi, o cümlədən mətnə əlavə olaraq dildənkənar(ekstralinqvistik) amillər (dünya haqqında məlumatlar, rəylər, münasibət, ünsiyyətçilərin sosial məqsədləri və s.) və ya ideoloji münasibətlər (M.Fuko) kimi anlaşılmaya başladı. Bu antroposentrik ənənə son dövrlərdə -- XXI əsrin əvvəllərində diskurs və diskursivlik fenomeninin təhlilinə sosial-konstruktiv yanaşmalara çevrilmişdir. Belə sosial-konstruktiv cərəyanın tanınmış nümayəndələri olan M. V. Yorgensen və L. J.Fillipsin qeyd etdiyi kimi, diskurs çox vaxt "dil nümunələrinə görə qurulan fikir" kimi başa düşülür,yəni diskurs "dilin sosial həyatın müxtəlif sferalarında insanların nitqini müəyyən edən qanunauyğunluqlar əsasında qurulmasına təkan verən ümumi fikir bazası" qismində başa düşülür. [Йоргенсен М. В., Филлипс Луиза Дж. 2004,стр.222]

Məlumdur ki, müasir dilçilik elminin tarixi inkişafında izlənilən və araşdırılan formal semantika məntiqi olaraq öz yerini koqnitiv semantikaya vermişdir. Belə ki, XX əsrin əvvəllərinə kimi ümumi dilçilikdə əsas tədqiqat hədəfləri dil-semantika parametrləri üzərində qurulmuşdu və bu tədqiqatların səciyyəvi cəhəti ondan ibarət idi ki, informasiyanın(fikrin) tam verilməsi məqsədilə sözlərin həqiqi və məcazi mənaları koqnitiv-semantik kontekstdən bir qədər kənarda saxlanırdı, daha doğrusu, həmin dövrün dilçilik tədqiqatlarında insan amilindən (antroposentrik baxışlar mövqeyindən) tamamilə istifadə olunmurdu. Ona görə də tədricən dildən nitqin törəməsi və qavranılması, eləcə də formalaşması məsələsi elmi gündəmə gəldi. Müasir dilçiliyin banisi F.Sössürün dillə nitqi fərqləndirərkən, nitq termininin əvəzinə — yeri gələndə, diskurs işlətməsi həmin terminin dilçilikdə möhkəmlənməsi və fəaliyyət dairəsinin genişlənməsinin ilkin şərtlərini müəyyənləşdirdi. Müasir dilçilik müstəvisində insanın dil-nitq siteminin institutsionallığı vasitəsilə dünyanı, dilləri və mədəniyyətləri anlamaq və dərk etmək əhəmiyyəti daşıyan, elmdə dərin tarixi kökləri olan antroposentrik kriteriyalar əsas götürülməyə başladı. [Стилистический энциклопедический словарь русского языка(под ред. М. Н. Кожиной), 2011,стр.53]

Dil insanın həyatı, fəaliyyəti və təfəkkürü ilə (V.Humbolt) bilavasitə bağlıdır və cəmiyyətdən kənarda mövcud ola bilməz.Yasadığımız dünya daha çox dil vasitəsilə dərk edilən, şərh edilən və ya ifadə olunan dünyadır. Hər hansı bir dili dərk edib anlamaq üçün ilk növbədə danışan və ya düşünən şəxsiyyətə, yəni dilin daşıyıcısı olan insana müraciət etmək lazımdır. Alman filosofu M.Şeler qeyd edirdi ki, fəlsəfi-antroposentrizm cərəyanı insanı bütöv bir varlıq kimi öyrənməyə çağırır. Müasir koqnitiv dilçilik də məhz "insanı bütöv varlıq kimi öyrənmə" mövqeyindən çıxış edərək antroposentrik tədqiqatların üzə çıxmasına--müxtəlif fənlərarası elmlərin (etnolinqvistika, sosiolinqvistika, linqvokulturologiya, psixolinqvistika və s.) yaranmasına səbəb olmuşdur. "Diskurs haqqında qeyd olunan tədqiqatların ciddiliyi, onların qarşıya qoyduğu tələblər və bu haqda tədqiqat məktəblərinin

meydana gəlməsini nəzərdə tutaraq bir çox mütəxəssislər müasir dövrdə fənlərarası diskursologiya fənninin yaranması fikrini irəli sürürlər.” [Allahverdiyeva G. 2020,s.28]

L.Blumfildin məşhur üçlük linqvistik-dil modeli -- “danışan-söyləm- dinləyən” fikri bir daha təsdiq edirdi ki, “dil müəyyən dil qrupunda işlənən söyləmlərin məcmusudur”.Zənnimizcə, dil və nitq dixotomiyası əlaqəsi dedikdə, diskurs elmi istilahını müasir diliçilyə gətirən E.Benvenist də həmçinin “dil — diskurs /diskursivlik prossesi” deyə təqdim edəndə, ümumiyyətlə, hər hansı bir dilin semiotik tətbiqi inkişafını onun nitqlə reallaşmasında — yəni informativ koqnitivliyün ötürülməsində dəyərləndirirdi.

Araşdırmalar sübut edir ki, diskurs və ya diskursivlik problemi müxtəlif elmi aspektlər baxımından -- həm kommunikativ hadisə(prosses), həm mətnləşmə (tekstoloji), həm dil-nitq sistemi, həm də sosiolinqvistik funksionallıq və s. prizmalarından nəzərdən keçirilir:ancaq mövcud problemə bu yanaşmaların fərqli xüsusiyyətləri olmasına baxmayaraq onlar bir-birlərini heç də əsaslı şəkildə istisna etmirlər. Buna görə alınan məlumatlar əsasında diskurs və ya diskursivlik fenomeninin müasir koqnitiv dilçilk elmi müstəvisində ümumiləşdirilmiş nəzəri şərhini verməyi məqsədəuyğun hesab edirik.

Bildiyimiz kimi, müasir Azərbaycan dilçiliyində diskurs və ya diskursivlik anlayışının tədqiq olunma tarixi barədə məlumatlar F.Veysəlli, A.Məmmədov vəb., Ə.Abdullayev, F.Cahangirov, G.Allahverdiyeva, A.Səfərova, Y.Orucova və başqalarına məxsus çoxsaylı elmi araşdırmalarda üzə çıxmışdır.Ədalət naminə qeyd etmək yerinə düşərdi ki, müasir Avropa dilçiliyində diskursa struktur-linqvistik yanaşmanın elmi nailiyyətlərinə şahidlik edən və yetərincə müsbət səviyyəli milli tədqiqatların əsas fokus mərkəzində əlahiddə olaraq diskurs fenomeni araşdırılsa da, ətraflı incələmə apardıqda diskursun məhz diskursivlik mahiyyəti çərçivəsində parallel araşdırmalara cəlb olunduğunun şahidi oluruq. Zənnimizcə, azərbaycanlı tədqiqatçıların dərin araşdırmaçılıq marağınn mərkəzində diskurs fenomeninin ən vacib diskursivlik keyfiyyəti, habelə ümumilikdə dil-nitq məfhumlarının koqnitiv məzmun və qrammatik mahiyyət uyğunluğu dayanır. F.Veysəlli diskurs, diskursivlik və diskursiv janrları geniş şəkildə tədqiq edərək, nitqi insanın ən vacib atributu hesab edir. O, “diskurs digər kommunikativ vasitələrin çulğalaşdığı meydandır, onun funksiyası, növləri, hüdudları və əlamətləri müəyyən mənada sırf dil elementlərindən başqa fərqli cəhətlərin də aşkar edilməsilə səciyyələnir”- deyə öz fikrini əsaslandırır. [Veysəlli F.Y. 2010,s.1] F.Veysəlli diskursu danışığa aid edir və onun mətndən fərqləndirmənin yollarını təklif edir. “Bəziləri diskursu “əlaqəli, rabitəli” mətn kimi təqdim edir, lakin düşünürük ki, bu variant qəbul edilə bilməz. Bunu onunla izah edə bilərik ki, mətni formalaşdıran cümlələr bir-birilə əlaqəli şəkildə təşkil olunur, yəni mətn əlaqəlidir və onun əlaqəsiz olması mümkün deyildir. Lakin eyni fikri diskurs üçün demək olmaz. Diskurs, xüsusilə də şifahi diskursda pərakəndə, yarımçıq cümlələrə, fikirlərə rast gəlmək mümkündür. Koqnitivlik və dil baxımından diskurs və mətn məfhumları bir-birilə səbəb-nəticə əlaqələri ilə

bağlanır və diskurs mətn sayəsində yaranır, formalaşır. [Veysəlli F.Y, 2010, s.22]. Bir sözlə, F.Veysəlli diskursun formulunu aşağıdakı kimi verir: "Diskurs=dil və ya üslub özəlliyi+mətn+kontekst." [Veysəlli F.Y. 2010,s.22] A.Məmmədov həm-müəllifi M. Məmmədovla birgə ərsəyə gətirdikləri "Diskurs təhlilinin koqnitiv perespektivləri" adlı monoqrafiyada öz növbəsində qeyd edirlər ki, diskurs mətnlə qarşı-qarşıya qoyularaq araşdırılmalıdır, diskurs fəaliyyətdə olan biheyviorist nitq parçasıdır və o, müəyyən mənanı yaranmış kontekstdə ifadə edir. Diskurs ümumən dillə əlaqəli danışıq parçasıdır. Nəticə olaraq belə bir yekun fikrə gəlirlər:" Diskurs mətn ilə situasiya komponentinə malik kontekstin məcmusudur" [A.Məmmədov və b. 2010, s.10] Digər bir tədqiqatçı Ə.Abdullayev diskurs və mətn fenomenlərinin rabitəli nitqin təşkilində geniş istifadə olunduğunu bildirərək, onlara elmi yanaşmada iki əsas cəhəti səciyyələndirir. Diskurs və mətn arasında xüsusi linqvistik əlaqələrin olması labüddür və onları bir nöqtəyə gətirən isə məhz dilin quruluşudur, çünki dilin nitq fəaliyyəti prossesində onun monoloji, dialoji və ya poliloji funksionallaşması və "Mətn diskursun təzahürünün (ünsiyyət fəaliyyətinin) alınmasında kommunikantların beynindən keçən və nəticə etibarilə də müəyyən sosialdəyişikliklərə gətirib çıxaran informasiya hasilatının müşahidə olunmayan koqnitiv prosesləri də özündə ehtiva edir. [Ə.Abdullayev. s.182] Ə.Abdullayev belə nəticəyə gəlir ki, diskurs bildiyimiz dil bacarıqlarından necə istifadə etməyimiz haqqında linqvo-koqnitiv biliklərdir, beləliklə də "diskurslaşma hadisəsi" baş verir. F.Cahangirov isə diskursu ümumi dilçilk mövqeyindən vurğulayaraq, mövcud problemə yanaşmaları belə yekunlaşdırmağa cəhd edir ki, diskurs və mətn anlamları arasında bərabərlik işarəsi əsla qoyula bilməz.Əgər diskurs artıq formalaşmış mətn və kontekstin vəhdəti kimi götürülərsə, onun diskurs olması yalnız digər dinləyici (dinləyicilər)tərəfindən qavranılma prosesində üzə çıxa bilər. O, adıçəkilən fenomeni və diskursivlik prosesini verbal və qeyri-verbal, dildaxili və dilxarici ünsürlərin tam vəhdəti qismində təsdiqləyir. Bununla da F. Cahangirov diskursu və yaxud da diskursivlik anlayışını müəyyən vasitələrlə aktuallaşmış, realizə olunmuş koqnitivlik qismində qəbul edərək, aktuallaşdırılmamış diskursun yalnız potensial diskurs oldugu qənaətinə gəlir, zənnimizcə, belə ümumiləşdirici fikirləri ilə o, F.Veysəllinin diskurs barədə elmi-konseptual qərarın ı«diskurs =mətn +kontekst» formulasında bir daha təsdiqləyir [adu.edu.az]

Mövcud problemə obyektiv mövqe sərgiləyən G.Allahverdiyeva, A.Səfərova, Y.Orucova və b. öz növbəsində diskurs fenomenini danışanla dinləyici (kommunikantlar) arasındakı münasibətlə müəyyən edilən və onların dil-nitq davranışı ilə şərtlənən kommunikativ hadisə kimi anlaşılan aktual linqvistik məfhum səviyyəsində araşdırmalara cəlb etmışlər. "Diskurs ilkindir, prosesdir, mətn isə həmin prosesin nəticəsidir. Diskurs danışan və dinləyən, yazan və oxuyan arasında qarşılıqlı kommunikasiyanın nəticəsi, cümlələrin və ya cümlə fraqmentlərinin koherent birləşməsidir. Bu mənada mətn yazılı diskursa istinad nöqtəsi kimi yanaşır." [Səfərova A. 2024,s.8]

Milli dilçilikdə diskurs və diskursivlik fenomenləri barədə məqsədyönlü nəzəri yekunlaşma apararaq belə qərara gəlirik ki, diskurs və diskursivlik fenomeni insanın sosial həyatın ən müxtəlif sahələrini əhatə edərək, "iyerarxik fikir, məna sistemi"nin "ictimai praktika"da aşkara çıxarılan real linqvistik hadisədir.Eyni zamanda diskursivlik dilin aktual mətnləşmə prosesi kimi, habelə sözlərin dil və nitq müstəvisində superfaza (dil-nitq dixotomiyası) əlaqəsi; öz-özünə uzlaşaraq reallşan mətn; mətnin şifahi(dil)-danışıq (nitq) forması; şəxsiyyətlərin (danışanla dinləyənin) qarşılıqlı düşüncə əlaqəsi; dialoq və poliloq; nitqin dil praktikası; məna cəhətdən bir-biri ilə əlaqəli ifadələr qrupunun yaradılma hadisəsi; nitq əsəri, yəni düşüncənin yazılı və ya şifahi dillə ifadəsi mərhələsi; "dil içərisində dil missiyası" və bu və ya digər kommunikativ, sosial-mədəni mənaların işarə fiksasiyasının qrammatik cəhətdən sabitlənmiş üsulu kimi təsbit edilir.

Bu təqdimatları yekunlaşdıraraq nəzərə almaq lazımdır ki, belə müxtəlif təriflər (təyinlər) çoxluğunda diskurs və ya diskursivlik anlayışının heç bir konkret linqvistik, yeganə düzgün sayılacaq kateqorial tərifi yoxdur və ola da bilməz.

Müasir Avropa dilçiliyində diskursa struktur-linqvistik yanaşmanın banilərindən olan E.Benvenist və Peşonun diskurs barədəki fikirləri xüsusi əhəmiyyət kəsb edir. [https://ru.wikipedia.org/w/index.php] E.Benvenist diskursu cümlədən böyük linqvistik struktur kimi səciyyələndirir, o, diskurs termini adı altında təkcə işarələr sisteminə malik bütöv dil strukturunu deyil, həm də prosesual kommunikativ xüsusiyyətləri nəzərdə tutur. O, diskursu dil aləminin ünsiyyət vasitəsi kimi dəyərləndirərək, onu tərkibindəki cümlələrlə birlikdə bir işarələr sistemindən çıxıb digər mənalar (koqnitivlik) dünyasına daxil edən fenomen kimi qəbul edir. Benvenistin müasiri Peşo isə öz müasirindən bir qədər də irəli gedərək belə bir maraqlı konsepsiya irəli sürür ki, diskursiv təhlildə dil və ideologiya qovuşur, sözlərin mənası ideologiyaya və müəlif mövqeyinə görə dəyişir, belə ki diskursiv proses ideoloji münasibətləri ifadə edir. Adıçəkilən diskurs konsepsiyası müasir Avropa dilçiyinin poststrukturalist fransız məktəbinin elmi tədqiqatları ilə diskurs və ya diskursivlik nəzəriyyəsinin inkişafına güclü təsir etmişdir. Bu istiqamətdə həmin dilçilik məktəbinin nümayəndələrindən dilçiliyə öz antroposentrik baxışlari ilə fərqlənən P.Seryonun yaradıcılığını nümunə gətirmək olar. P.Seryo diskursun aşağıdakı mənalarını təqdim edir: 1) diskurs nitqə sinonimdir (F.Sössür); 2) diskurs frazafövqü (əlahiddə) vahiddir, onun predmeti mətnin qrammatikasıdır; 3) praqmatik baxımdan diskurs nitqi anlayana təsir situasiyasıdır; 4) diskurs xüsusi söyləm olaraq nəqletmə prosesini ehtiva edir; 5) E.Benvenistin qəbul etdiyi kimi: diskurs söyləyən tərəfindən olunan ifadə olunan nitqdir; 6) bəzən diskurs və nitq bir-birinə zidd gələn anlayışlardır; 7) diskurs xüsusi növ nitqdir; 8) diskursla söyləm fərqləndirilməli və onların predmeti müəyyənləşdirilməlidir və s. [Серио П.-1999,с.25]

Müasir Avropa dilçiliyinin digər bir fəal məktəbi olan alman diskurs məktəbinin görkəmli nümayəndəsi, filosof Y.Habermas diskurs və ya diskursivlik fenomenlərini sosial fəaliyyət kimi dəyərləndirərək,diskursun drammatikliyi, normativliyi, kommunikativliyi və sosial legitimliyi ilə bağlı fikirlərini təqdim edir, lakin

qeyd olunan aspektlərdə müstəqil və konsensus kommunikasiyasını xüsusilə fərqləndirir.

Müasir Avropa dilçiliyində diskurs nəzəriyyəsinin formalaşmasında hollandiyalı dilçi V.T Deykin də xüsusi rolu vardır. V.T.Deyk diskurs fenomenini daha geniş spektrdə – mürəkkəb kommunikativ hadisəni əks etdirən mətni ekstralinqvistik amillər ilə birlikdə götürür,yəni natiqin dünya haqqındakı məlumatı, düşüncəsi, dinləyənə təsir faktoru və bu kimi digər amilləri də buraya aid edir. Öz diskurs nəzəriyyəsində V.T.Deyk diskursa əlavə olaraq "hakim" terminini uyğunlaşdırır, daha doğrusu, bu sinonim termin vasitəsilə diskursa — idarə etmək anlamını verir, belə ki dil kompleks koqnitiv sistem kimi öz diskursiv mahiyyətinə görə "hakimiyyət" – " idarəetmə ideologiyası" məqsədini əks etdirir. [Ван Дейк Теун:1989]

Müasir Avropa dilçiliyində,o cümlədən Rusiya dilçiliyində qeydə alınan diskursa struktur-linqvistik yanaşmanın nəticəsində hasil olan bir çox tədqiqatlarda [postnauka.org›faq/10456] bir qədər subyektiv görünən belə fikir də təlqin edilir ki,istənilən mətn hansısa bir ideoloji motivə malikdir ki, bunu ideoloji mətn adlandırmaq olar. Motiv deyəndə isə dinamik nəqletmə və mətnin ideyası nəzərdə tutulur. Göründüyü kimi, bu mövqe diskursa məntiqi-semantik yanaşmanı əks etdirir. Ümumiyyətlə, diskursun analitik təhlil metodlarının araşdırmaçıları problemin öyrənilməsi sahəsində postmodernist tədqiqatlar aparmışlar, bu zaman əsas fikir diskursun ideoloji və siyasi tərəfinə yönəldilmişdir, habelə diskurs deyəndə mentallığı, ideologiyanı müəyyən qaydalar əsasında həyata keçirən kommunikativ aktlar nəzərdə tutulmuşdur. Beləliklə, diskursa aid çoxlu sayda tədqiqatların aparılması diskurs təliminin təkmilləşməsində və onun kriteriyalarının dəqiqləşməsində mühüm rol oynamışdır. Diskurs probleminin öyrənilməsində hələ də mübahisəli məsələlər vardır.

Məsələn, söhbəti diskursun tipologiyasına aid tədqiqatlara şamil etdikdə, mövzuya yanaşmalardakı bu fərqliliyi nəzəri konseptuallığın mürəkkəbliyi ilə izah etmək olar, çünki diskurs və diskursivlik barədə elmi konsepsiyanı bir qrup tədqiqatçı praqmatik vəziyyətə, digər qrup isə ünsiyyət iştirakçılarının sosial-kommunikativ aktlrına yönəltmişdir. Beləliklə, diskurs danışanla dinləyici arasındakı münasibətlə müəyyən edilən və sonuncunun nitq davranışı ilə şərtlənən kommunikativ hadisədir. Onun tədqiqində yeni tədqiqat perspektivləri dil sistemindəki diskursivlik fenomeninin prioritet postulatlarına əsaslanır. Bu yanaşma dili bütövlükdə insanın sosial tənzimlənməsi amili kimi şərh edir və bu fakt şüur, nitq və cəmiyyət ilə ayrılmaz şəkildə bağlıdır. Zənnimizcə,sosial yönümlü elmi tədqiqatların modelləşdirilməsində əhəmiyyətli nailiyyətlər diqqəti cəlb edir və bu nailiyyətlər diskursu insan fəaliyyətinin digər sahələri(mədəni-tarixi, ideoloji, psixoloji və s.) ilə spesifik əlaqələrə yönədir və təbii olaraq kommunikativ-koqnitiv yanaşmalar baxımından öyrənməyə zəmin yaradır.

Ümumiyyətlə, diskurs problemini tədqiq edərkən ona koqnitiv dil fəaliyyəti və ya bu fəaliyyətin nəticəsi kimi yanaşmaları fərqləndirmək lazımdır. Belə bir fərqliliyin mövcudluğuna baxmayaraq, bu fenomenə kompleks yanaşmanın məh-

suldarlığı göz qabağındadır. İnsanın beynində hər hansı bir informasiyanın istehsalı və ya emalını izləyən müxtəlif elmi sistemlərin (linqvistika, linqvopsixologiya, linqvososilogiya, neyropsixologiya, süni intellekt nəzəriyyəsi və b.)sayəsində koqnitiv proseslərin necə həyata keçirdiyini dərk etmək ehtiyacı yaranır,çünki belə proseslərin hərtərəfli öyrənilməsi kompleks şəkildə, yəni yuxarıda adıçəkilən elmlərin birgə səyi, habelə kompüter texnologiyasının müvafiq mövzu üzrə sürətli tədqiqi nəticəsində mümkün ola bilər. Deməli, müasir elmi tədqiqatların qarşısına süni intellekt yaratmaq, maşına insan kimi düşünməyi(diskursiv qavrayış nümayış etdirmək, biliklərin, konsepsiyaların mədəni-sosial təfəkkür vahidinə çevrilməsini izləmək, müəyyən vasitələrlə aktuallaşan, realizə olunan konseptlərin ünvanlanmasını təmin etmək və s.) öyrətmək məsələsi qoyulur, amma diskurs və ya diskursivlik fenomeninin süni intellektə “köçürülmüş”linqvo-koqnitiv proseslərini tam açmadan qarşıya qoyulan məqsədə çatmaq(yəni süni intellektin insanı tam əvəz etmək məsələsi) mümkün deyil.

**ƏDƏBİYYAT:**

1.Лингвистический энциклопедический словарь / Гл. ред. В.Н. Ярцева. - М.: Сов.энциклопедия, 1990. - 685 с.

2.Захарченко Е. Н., Комарова Л. Н., Нечаева И. В. Новый словарь иностранных слов. М., 2008, с. 271

3.Арутюнова Н. Д. Дискурс // Лингвистический энциклопедический словарь. — М.: СЭ, 1990. — ISBN 5-85270-031-2.

4. Стилистический энциклопедический словарь русского языка/ под ред. М. Н. Кожиной //— М. : Флинта : Наука, 2011.

5.Глоссарий, Словарь терминов по социологии. Дискурс — Википедия

6.Андрей Кибрик. 7 фактов об одном из центральных понятий современной лингвистической теории.FAQ: Дискурс — все самое интересное на ПостНауке

7.Йоргенсен М. В., Филлипс Луиза Дж. Дискурс-анализ. Теория и метод / Пер. с англ.. — 2-е изд., испр. — Харьков: Изд-во «Гуманитарный центр», 2008. — 352 с. — ISBN 966-8324-06-4.

8.Серио П. Квадратура смысла. Французская школа анализа дискурса. — М.: Прогресс, 1999. — С. 194. — ISBN 978-5-9710-0917-7.

9.Ван Дейк Теун А. Язык. Познание. Коммуникация / Пер. с англ. / Сост. В. В. Петрова; Под ред. В. И. Герасимова;— М.: Прогресс, 1989. — 312 с

10.Veysəlli F.Y. Diskurs təhlilinə giriş.− Bakı: Təhsil NPM, 2010,− 141 s.

11.Məmmədov A. və Məmmədov M. —Diskurs tədqiqi Bakı. Elm və təhsil, 2016,112 s.

12.Cahangirov F. Koqnitivlik və diskurs probleminə müasir baxış: Elekt.resurs: <adu.edu.az > elmi-eserler.

13.Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs, Bakı: Zərdabi LTD MMC NPM, 2011.- 272 s.2011,Presidential Library: Book details

14.Allahverdiyeva G. Dilçilikdə diskurs nəzəriyyəsinin formalaşmasi məsələsinə dair, Dil və ədəbiyyat, X cild, №3, 2020

15.Səfərova A. Diskursda metaforlaşma problemi,Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferati, Bakı – 2024

**Elektron mənbələr:**
1. https://ru.wikipedia.org/w/index.php.
2. **[https://az.wikipedia.org/w/index.php]**
3.zaochnik-com.com›
4.postnauka.org›faq/10456

## BRIEF SUMMARY OF THE SCIENTIFIC APPROACH TO THE PHENOMENON OF DISCOURSE OR DISCURSIVNESS (FROM THE POSITION OF MODERN AZERBAIJANI AND EUROPEAN LINGUISTS)

**SUMMARY**

In the article entitled "A Brief Summary of the Scientific Approach to the Phenomenon of Discourse or Discursiveness (from the Position of Modern Azerbaijani and European Linguists)", the author reflects his generalizing theoretical position on the mentioned problem. As a result of a new socio-conceptual approach to the existing problem within the framework of the philological philosophy of the 20th century, discourse is understood as a monological linguistic construction developed in speech or text. In addition, the "production" of speech in each language is carried out in accordance with certain rules (syntax) and with certain semantics reflecting its ultimate essence. In the discursive sphere, the intellectual and social spheres mutually create conditions and opportunities for the activity of the language system (through the communication environment and communicators), and this situation turns into a certain type of discursive experience. The decisive criterion of discourse is the specific language environment in which various linguistic constructions are created. According to this concept, discourse is "language within language", that is, it is a communicative includes elements of vocabulary, semantics, pragmatics and syntax that are manifested in acts, speech and texts. Summing up these theoretical ideas, it should be noted that among so many different definitions (determinants), there is not and cannot be a single, correct, specific linguistic definition of the concept of discourse or discursiveness.

***Key words:*** *discourse theory, speech process, communicative acts, discursive functionality of language, ideology of speech control, artificial intelligence*

# КРАТКОЕ ИЗЛОЖЕНИЕ НАУЧНОГО ПОДХОДА К ФЕНОМЕНУ ДИСКУРСА ИЛИ ДИСКУРСИВНОСТИ (С ПОЗИЦИЙ СОВРЕМЕНННОГО АЗЕРБАЙДЖАНСКОГО И ЕВРОПЕЙСКОГО ЛИНГВИСТИЧЕСТВА)

## РЕЗЮМЕ

В статье «Краткое изложение научного подхода к феномену дискурса или дискурсивности (с позиций современнного азербайджанского и европейского лингвистичества)» автор излагает свою обобщающую теоретическую позицию по данной проблеме. В результате нового социально-концептуального подхода к существующей проблеме в рамках филологической философии XX века дискурс понимается как монологическая языковая конструкция, развиваемая в речи или тексте. Дискурс связан с деятельностью языка, соответствующего определённой языковой сфере, и обладает особой системой словаря. Кроме того, «производство» речи в каждом языке осуществляется по определённым правилам (синтаксису) и с определённой семантикой, отражающей её конечную сущность. В дискурсивной сфере интеллектуальная и социальная сферы взаимно создают условия и возможности для деятельности языковой системы (через среду общения и коммуникантов), и эта ситуация превращается в определённый тип дискурсивного опыта. Решающим критерием дискурса выступает конкретная языковая среда, в которой создаются различные языковые конструкции. Согласно этой концепции, дискурс – это «язык внутри языка», то есть он включает в себя элементы лексики, семантики, прагматики и синтаксиса, которые проявляются в актуализированных коммуникативных актах, речи и текстах. Подводя итоги изложенного, следует отметить, что среди такого множества различных определений (дефиниций) нет и не может быть какого-либо конкретного лингвистического, категориального определения понятия дискурса или дискурсивности, которое считалось бы единственно верным.

***Ключевые слова:*** *теория дискурса, речевой процесс, коммуникативные акты, дискурсивная функциональность языка, идеология управления дискурсом, искусственный интеллект*